# Tarixi həqiqətlərimiz dünya birliyinə çatdırılmalıdır



**professor Elmira SÜLEYMANOVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)**

Qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə xalqlararası əlaqələrə bəşəri dəyərlərə ehtiram prinsipi ilə yanaşılmalıdır. Dünyanın mütərəqqi qüvvələri soyqırımı cinayətlərinə yol açan milli, irqi və dini dözümsüzlüyə, nifaq, düşmənçilik yaradan hallara qarşı səylərini birləşdirməli, qətiyyətlə mübarizə aparmalıdırlar. Ermənilər tərəfindən törədilmiş uzun illərdən bəri gizli saxlanılan soyqırımı cinayətlərinin açılması, xalqımıza qarşı törədilən bu cinayətlərin, həm də milli-mənəvi və mədəni dəyərlərimizə vurduğu zərbələrin ağır nəticələrinin üzə çıxarılması, tarixi hadisələrə obyektiv elmi qiymət verilməsi hazırda həyati zərurət və bu sahədə qətiyyətlə gerçəkləşdirilməli olan mühüm fəaliyyət istiqamətlərindən biri kimi qarşıda durur.

Hər il aprel ayının 24-də Ermənistan və dünyanın müxtəlif ölkələrində məskunlaşmış erməni şovinist dairələri guya türklərin erməniləri soyqırımına məruz qoyması barədə uydurub ortaya atdıqları yalanlara beynəlxalq ictimaiyyətin diqqətini yönəldir, bu məsələ ilə bağlı dünya miqyasında dəstək qazanmaq üçün beynəlxalq və regional maraqlar qarşıdurması yaradırlar.

Bu günlərdə Roma Papasının bu məsələyə dair səhv yanaşmasından sonra Avropa Parlamentinin Brüsseldə keçirilən plenar iclasında "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi, hər il 24 aprel tarixinin Avropa Birliyinə daxil olan ölkələrdə "erməni soyqırımı" günü kimi qeyd olunmasını nəzərdə tutan qətnamə əsassız, qərəzli və qeyri-ciddi sənəd olaraq, türk dünyasına qarşı ayrı-seçkiliyə əsaslanan münasibətdən irəli gəlir. Tarixi təhrif edən Avropa Parlamentinin bu qətnaməsi ədalətsiz, siyasiləşmiş və xüsusi məqsəd daşıyan, qeyri-obyektiv, yalan faktlara istinad edən sənəd sayılır.

İki əsrdən çoxdur ki, erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti nəticəsində xalqımız ağır məşəqqətlərlə üzləşmiş, soydaşlarımızın insan hüquqları kobudcasına, kütləvi surətdə pozulmuşdur.

Mənfur siyasətin məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduqları "böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. Dövləti olmayan ermənilər əsrlər boyu nəyin bahasına olursa-olsun, ən əsası isə qonşu xalqların əzəli torpaqları hesabına öz dövlətçiliyini əldə etməyə can atmışlar. Osmanlı Türkiyəsinə qarşı təcavüzkar planlarından bəhrələnən erməni millətçiləri bu istək və xülyalarını gerçəkləşdirmək üçün özlərinə böyük himayədar axtarışına başlamışlar. XIX əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan torpaqları olan Qarabağa, Zəngəzura, İrəvan quberniyasına, Naxçıvana və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsi köçürülmüşdür.

Keçmiş Sovet İttifaqının dağılması ərəfəsində yaranmış xaosdan istifadə edən Ermənistan 1988-ci ildən başladığı növbəti təcavüz nəticəsində Azərbaycanın Dağlıq Qarabağ ərazisini, eləcə də ona bitişik yeddi rayonu işğal etmiş, beləliklə, torpaqlarımızın iyirmi faizi zəbt edilmiş, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı və deportasiya siyasəti, qətliamlar 1918-1920-ci illərdə xüsusilə genişlənmişdir. Ermənilər zaman-zaman heç bir əsaslı fakta istinad etmədən, bütün dünyanı amansız soyqırımına məruz qalmaları barədə cəfəng məlumatlar yayaraq, dünyanı bu uydurmalara inandırmağa cəhd ediblər. Əslində isə üzə çıxan, aşkar edilən faktlar bunun tam əksini deməyə əsas verir. Müxtəlif ölkələrin—Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan, Böyük Britaniya, Almaniya, Fransa, Hindistan, İtaliya və digər ölkələrin arxivlərindən əldə edilmiş çoxsaylı sənədlər, tarixçi alimlərin saysız-hesabsız araşdırmaları 1914-1920-ci illərdə Şimali Azərbaycanın bir çox bölgələrində, həmçinin Cənubi Azərbaycanın ərazilərində yaşayan türk-müsəlman əhalisinə qarşı erməni silahlı birləşmələri tərəfindən dəhşətli soyqırımları törədildiyini sübut edir.

Etibarlı elmi mənbələrə əsasən, türk-müsəlman əhalisi, o cümlədən günahsız dinc insanlar, qadınlar, ahıllar, körpələr məhz milli mənsubiyyətinə görə məhv edilmişlər. Bu mənfur soyqırımı siyasəti sonrakı dövrlərdə də davam etdirilmişdir. Erməni təcavüzünün növbəti mərhələsi 1918-ci ilin mart ayında S.Şaumyan başda olmaqla daşnak-bolşevik təmayüllü Bakı Soveti tərəfindən həyata keçirilmişdir.

Həmin il martın 30-da erməni-bolşevik birləşmələrinin Bakıya silahlı hücumu ilə başlanan hadisələrin ardınca 31 mart və 1-2 aprel tarixlərində insanlığa sığışmayan qırğınlar kütləvi şəkil almış, erməni əsgərləri dinc əhalini amansızcasına qətlə yetirmişlər. Mart qırğınlarının davam etdiyi günlərdə Azərbaycan ərazisində yüz minlərlə soydaşımız, o cümlədən Bakıda və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı qəddarlıqla öldürülmüş, bənzərsiz tarixi abidələr, məscidlər, məktəb binaları yandırılmışdır.

Qubada 1918-ci il hadisələri zamanı ermənilərin törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar üzə çıxarılmışdır. Tapılmış saysız-hesabsız insan sümükləri bu qırğınlar zamanı erməni vandalizmini təsdiqləyən əyani dəlillərdir. Bu ərazidə on minlərlə insanın qətlə yetirilməsinin sübutu kimi və onların xatirəsinə ehtiram əlaməti olaraq, Quba soyqırımı Memorial Kompleksi yaradılmışdır. Azərbaycan Respublikası Hərbi Prokurorluğunun bir qədər əvvəl açılmış Memorial Soyqırımı Muzeyi də Azərbaycanın tarixi həqiqətlərinin, erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilmiş qırğınların, qətliamların dünya ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Ötən əsrin 80-ci illərinin sonlarında etnik təmizləmə, deportasiya nəticəsində Ermənistan Respublikasının ərazisindən—tarixi Azərbaycan torpaqları olan İrəvandan, Zəngəzurdan və digər bölgələrdən 200 min azərbaycanlı zor gücünə qovulmuş, soydaşlarımızın insan hüquqları kütləvi şəkildə, kobudcasına pozulmuşdur.

Dağlıq Qarabağ və digər işğal olunmuş Azərbaycan torpaqlarında erməni təcavüzkarlarının dinc əhaliyə qarşı kütləvi qırğınları da əsl vəhşilik və qəddarlıqla həyata keçirilmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan şəhəri Xocalıda dinc əhaliyə qarşı törədilmiş soyqırımı bunun ən dəhşətli nümunəsi, XX əsrdə insanlığa qarşı ən qəddar cinayətlərdəndir.

Xocalıda törədilmiş əməllərin əvvəlcədən düşünülmüş qaydada, milli əlamətinə görə konkret bir qrupun tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi, onun beynəlxalq hüquqa əsasən məhz soyqırım olduğunu sübut edir.

Beynəlxalq hüquqa əsasən soyqırım ən ağır beynəlxalq cinayət olmaqla təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, beynəlxalq terrorizm kimi cinayətlərlə yanaşı sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Beynəlxalq cinayət hüququnda soyqırım xüsusilə təhlükəli beynəlxalq cinayət kimi dəyərləndirilir. Soyqırım cinayətinin tərkibi bir sıra beynəlxalq hüquqi aktlarda müəyyənləşdirilmişdir.

BMT-nin bir sıra sənədlərində də, soyqırım ümumi beynəlxalq hüquq normalarını pozan, bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət kimi dəyərləndirilir. BMT Baş Assambleyasının 11 dekabr 1946-cı il tarixi 96 (1) saylı qətnaməsində soyqırımın beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir.

Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, soyqırımın bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə soyqırım hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: bu cür qrup üzvlərinin öldürülməsi; belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımın beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən soyqırım, soyqırım törətmək məqsədilə sui-qəsd, soyqırıma birbaşa və açıq təhrikçilik, soyqırıma cəhd, soyqırımda iştirak etmək əməlləri cəzalandırılır.

Son vaxtlar bütün dünyada haqq işimizin beynəlxalq hüquq müstəvisində təbliği və tanınması istiqamətində müəyyən canlanma duyulur, Xocalıda törədilmiş qanlı qətliam etiraf olunur. ABŞ-ın Kaliforniya, Massaçusets, Texas, Nyu-Cersi, Meyn, Nyu-Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi, Vest Virciniya ştatlarının qanunverici orqanlarında Xocalı faciəsi ilə bağlı qətnamə qəbul edilmişdir.

Artıq Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, Sudan, İordaniya və Hondurasın parlamentləri də Xocalı soyqırımını tanımışlar.

31 mart tarixi artıq neçə ildir ki, ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd edilir və bu, xalqımızın, dövlətçiliyimizin tarixində baş vermiş faciələrin tanıdılması, dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm addımlardandır.

Avropa ölkələrində, ABŞ-da yaşayan, yüksək imkan sahibi olan varlı ermənilər külli miqdarda maddi vəsaitləri hesabına daim mənfur planlarını gerçəkləşdirməyə can atırlar. Saxta erməni soyqırımının 100 illiyi ərəfəsində yalanların baş alıb getdiyi, erməni millətçilərinin tarixi saxtalaşdırılmasına yönəlmiş hay-küylü toplantılarının keçirildiyi günlərdə ölkəmizdə bu uydurmalara, əsassız erməni təbliğatına cavab olaraq mötəbər beynəlxalq konfranslar təşkil edilmişdir.

Bu günlərdə Quba şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" adlı II Beynəlxalq elmi konfransda ölkəmizin tarixçiləri ilə yanaşı, Türkiyə, Rusiya, Almaniya, Bolqarıstan, Fransa, Polşa, İran, Gürcüstan, Kipr, Albaniya və Özbəkistandan gəlmiş tarixçi alimlər iştirak etmişlər. Bu möhtəşəm tədbir AMEA-nın Rəyasət Heyəti, A.A.Bakıxanov adına Tarix İnstitutu, Türkiyə Respublikasının Atatürk Araşdırmalar Mərkəzi və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilmişdir. Dinlənilən məruzələrdə erməni millətçilərinin tarixin müxtəlif dövrlərində törətdikləri qətliamların, qırğınların, deportasiya siyasətinin mahiyyəti, tarixi kökləri açıqlanmışdır. Türk xalqlarının tarixi keçmişinin faciəli səhifələrinə işıq salan konfransda türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları ilə bağlı dünya elm ictimaiyyətinə müraciət qəbul edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası və AMEA-nın İnsan Hüquqları İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş "Saxta erməni soyqırımı: uydurma və gerçəklik" mövzusunda konfransda Türkiyə, Almaniya, Gürcüstan və Moldovadan gəlmiş tarixçi alimlər, soyqırımı cinayətini tədqiq edən mütəxəssislər, hüquqşünaslar, politoloqlar iştirak edirdi.

Ombudsman olaraq, bu beynəlxalq konfransdakı çıxışımda qeyd etdim ki, erməni təcavüzü, genosid və terror siyasətinə qarşı mübarizə ölkəmizdə ilk günlərdən insan hüquqları sahəsində fəaliyyətin əsas prioritet mövzularından olmuşdur.

Əsas etibarilə erməni mənbələrindən ibarət olan çoxsaylı faktları, sənədləri araşdıran alimlərin qənaətinə görə, ermənilərin soyqırımına məruz qalmaları ilə bağlı iddiaları, həqiqətən, uydurmadan başqa bir şey deyildir.

Həqiqətə dözümsüzlük ermənilərin əsl simasını göstərir. Bunun ən bariz nümunəsi Moldova Ombudsmanı Aureliya Qriqoriuya olan münasibətdir. O, Ombudsmanların Bakı Beynəlxalq konfranslarında bir neçə dəfə iştirak etmiş, Quba Soyqırımı Memorial Muzeyində olmuş, azərbaycanlılara qarşı erməni genosidini təsdiqləyən abidələrlə, sənədlərlə tanış olmuşdur. Yerevanda keçirilmiş "Dondurulmuş münaqişələr və insan hüquqları" mövzusuna həsr edilmiş, beynəlxalq tədbirdəki çıxışında Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın torpaqlarının Ermənistan tərəfindən zəbt olunduğunu və digər Azərbaycan həqiqətlərini səsləndirdiyinə görə ermənilər tərəfindən kobud rəftar, hədələr və təqiblərlə üzləşmişdir.

Ermənilərin saxtakarlığını təkzib edən bir sıra əsərlər yazılmış, müxtəlif dillərdə dünyaya yayımlanmışdır. Bir sıra müəlliflər, həmçinin avstriyalı tarixçi alim Erix Fayql "Terror mifi" və Samuel A.Weems "Xristian" terrorçu dövlətin sirləri (ermənilərin böyük yalanları silsiləsindən) adlı əsərlərində ermənilərin uydurmalarını, təcavüzkar niyyətlərini tarixi faktlar və sənədli dəlillərlə ifşa etmişlər.

Azərbaycan həqiqətlərini, milli faciələrimizi beynəlxalq ictimaiyyətə çatdırmaq, bütün dünyanı bu həqiqətlərə inandırmaq olduqca vacibdir. Dağlıq Qarabağ münaqişəsi əslində 25 ildən artıq müddətdə davam edən, Ermənistanın Azərbaycanın əzəli torpaqlarını zəbt etməklə öz ərazilərini genişləndirmək niyyəti ilə başladığı elan edilməmiş müharibədir.

Ermənilərin azərbaycanlılara qarşı son vaxtlar törətdikləri soyqırımı hadisələrinin bir neçəsini xatırlatmaq yerinə düşərdi. 1988-ci ildə Dağlıq Qarabağda erməni separatçıların hərəkətə keçdiyi vaxtdan Qaradağlı kəndinin də faciəli günləri başlanmışdı. Kənd əhalisi doğma yurdun hər qarışı uğrunda mübarizə aparmış, sakinlərdən 77 nəfəri ermənilərə qarşı qeyri-bərabər döyüşlərdə qətlə yetirilmişdi. Erməni quldurları 1991-ci il iyununun 28-də kəndin fermasında işləyən kişiləri və qadınları diri-diri yandırmışdı. 1991-ci il dekabr ayının 19-da Xocavənd kəndi, 1992-ci il fevral ayının 12-də isə Malıbəyli və Quşçular kəndləri işğal edilərək yandırılmışdı.

1992-ci il fevral ayının 17-də erməni silahlı birləşmələri tərəfindən Qaradağlı kəndinin dinc sakinlərinin başına görünməmiş müsibətlər gətirilmişdi. 104 sakindən 54-ü, habelə qüvvələrin bərabər olmadığı döyüş zamanı 12 azərbaycanlı əsgər əzab və işgəncələrlə öldürülmüş, insanlar diri-diri torpağa basdırılmışdı. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. 42 ailə başçısını itirmiş, 140-a yaxın uşaq yetim qalmışdı. Qaradağlı faciəsi zaman bu kəndin 800-ə yaxın sakini doğma yurd yerindən məcburi köçkün düşmüşdü.

Ermənistan dövləti Azərbaycanın tarixi torpaqlarında marionet bir rejim yaratmış, qondarma Dağlıq Qarabağ Respublikasını elan etmişdir və beynəlxalq hüquqa zidd olaraq bu oyuncaq rejimin öz "parlamenti", "polis və prokurorluq orqanları", "məhkəməsi" vardır. Ötən ilin iyulunda ata-baba torpaqlarını, oradakı valideynlərinin məzarlarını ziyarət edərkən ermənilərin girov götürdüyü iki azərbaycanlıya—D.Əsgərov və Ş.Quliyevə heç bir cinayət törətmədikləri halda, məhz bu oyuncaq məhkəmədə hökm oxunmuş, onlardan birinə ömürlük, digərinə 22 il cəza verilmişdir. Halbuki beynəlxalq hüquqa əsasən, qeyri-legitim bir dövlətin saxta məhkəməsinin qərarı tamamilə əsassızdır.

Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və yeddi ətraf rayon Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, habelə BMT Baş Məclisinin, AŞPA-nın müvafiq qətnamə və tövsiyəsi bir daha sübut edir. Təəssüf ki, Ermənistan tərəfi bu qətnamə və tövsiyələri bugünədək yerinə yetirmir.

Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan heç vaxt öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyimizi dəfələrlə diqqətə çatdıraraq, bu münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmasının zəruriliyini bəyan etmişdir. Etnik təmizləmə, soyqırımı və terroru öz dövlət siyasətinin tərkib hissəsinə çevirən, kütləvi insan hüquqları pozuntularına yol verən monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycanda 80-dən çox milli azlıq və etnik qrupun nümayəndələri dözümlülük və tolerantlıq şəraitində yaşayır.

Ölkədə hələ də on minlərlə erməni yaşayaraq Azərbaycan vətəndaşı kimi bütün hüquq və azadlıqlarından faydalanır.

Ermənistan yürütdüyü təcavüzkar siyasəti xalqların öz müqəddəratını təmin etmək arqumenti ilə pərdələyir və bundan Azərbaycan dövlətinin BMT-nin ümumtanınmış prinsipi olan ərazi bütövlüyünün pozulması, toxunulmazlığı arqumentinə qarşı istifadə edir. Halbuki öz müqəddəratını təyinetmə hüququ yalnız bütöv bir xalqa məxsusdur və bunun xalqın bir hissəsinə, yəni Dağlıq Qarabağda yaşayan erməni əhalisinə şamil edilməsi qanuna ziddir.

Ölkəmiz üçün sülhün bərqərar olması xüsusi əhəmiyyət kəsb edir. Sülh— həyatın özü, yaşamaq, sağlam nəsillər deməkdir. Bütün bunların toplumu isə dünyada, ayrı-ayrı ölkələrdə davamlı inkişaf, qarşılıqlı əməkdaşlığı ehtiva edir. İnsanların daim sülh məramlı olması, əmin-amanlığa, sülhə çatmaq üçün hər bir kəsin sülh mədəniyyətinə yiyələnməsi olduqca vacibdir. Azərbaycan Ombudsmanının fəaliyyətində sülh hərəkatının formalaşdırılması, sülh mədəniyyətinin təbliği, bu sahədə əməkdaşlıq və maarifləndirmə istiqamətlərinə xüsusi diqqət yetirilir, müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti, QHT-lər, beynəlxalq təşkilatlar və dini icmalarla qarşılıqlı əlaqələr daha da genişləndirilir.

Dünyada zaman-zaman baş verən münaqişə və müharibələr həmişə çoxsaylı insan tələfatı ilə nəticələnir. Torpaqlarının iyirmi faizi işğal olunmuş, iyirmi mindən çox soydaşını itirmiş, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan Azərbaycanın haqq işini dünya ictimaiyyətinə, sülhsevər qüvvələrə çatdırmaq, nüfuzlu beynəlxalq təşkilatların diqqətini və səylərini Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəltmək bu gün də ən mühüm zərurət kimi qarşıda durur.

2009-cu il sentyabrın 15-də BMT Baş Assambleyasının 64-cü sessiyasında iştirakım zamanı Beynəlxalq Sülh Bürosunun üzvü olan, çoxsaylı dövlət qurumlarını, 60-dan çox qeyri-hökumət təşkilatını, müxtəlif etnik qrupları və dini icmaları birləşdirən Azərbaycan Sülh və İnkişaf Alyansının BMT-nin həmin sessiyasına və Təhlükəsizlik Şurasına ünvanlanan, Müvəkkil tərəfindən dəstəklənən müraciətin tam mətni iştirakçıların diqqətinə çatdırılmış, bu sənədin nüfuzlu beynəlxalq qurumlara göndərilməsi qərara alınmışdı.

Müraciətdə həmin sessiyanın gündəliyində "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" və "GUAM ərazisində uzanan konfliktlər və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" adlı bəndlərin öz əksini tapmasının xüsusi əhəmiyyət kəsb etdiyi, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin, habelə Baş Assambleyanın 14 mart 2008-ci il tarixli qətnaməsinin Ermənistan tərəfindən icra olunmadığı, işğal olunmuş torpaqlarımızın hələ də azad edilmədiyi vurğulanmışdır.

Sənəddə qeyd olunmuşdur ki, Ermənistan tərəfindən beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə qeyri-konstruktiv mövqe nümayiş etdirilir, bu gün də atəşkəs rejimi mütəmadi olaraq pozulur, tez-tez qanlı təxribatlar törədilir, nəticədə azərbaycanlı hərbi qulluqçular və sərhədyanı bölgədə yaşayan mülki vətəndaşlar həlak olur, işğal altında qalmış torpaqlarımızda zəngin təbii sərvətlərimiz, mədəni irsimiz mənimsənilir, nadir memarlıq nümunələri və dini abidələrimiz amansızcasına dağıdılır. Belə bir vaxtda sülhyaratma proseslərinə dəstək verilməli, sülhü qoruyub saxlamaq, xalqların rifahını yüksəltmək istiqamətində bütün səylər birləşdirilməlidir.

Həmin sənəddə xalqımıza qarşı uzun müddətdən bəri davam edən təcavüz pislənilmiş, dünyada, ümumən Cənubi Qafqaz regionunda sabitliyə, sülhyaratma proseslərinə təsir göstərən neqativ amil hesab edilmişdir. Dünya ictimaiyyəti, beynəlxalq qurumlar, o cümlədən nüfuzlu beynəlxalq təşkilat olan BMT-nin ünvanına münaqişənin sülh yolu ilə həllinə dəstək verilməsində, Azərbaycanın haqlı mövqeyinin müdafiə edilməsində, ərazi bütövlüyünün bərpasında da kömək göstərmək çağırışı səslənmişdir.

Müraciətdə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət adlı" Qətnamənin icrasına dair xüsusi sənədin qəbul edilməsi xahiş olunmuşdur.

Qeyd olunmalıdır ki, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Milli İnsan Hüquqları Təsisatları (MİHT) üzrə Beynəlxalq Koordinasiya Komitəsinin "A" statusuna malik olan təsisatımız mütəmadi şəkildə adıçəkilən komitənin iclaslarında fəal iştirak edir. BMT-nin adıçəkilən Komitəsinin 2014-cü ilin mart ayında Cenevrədə keçirilmiş 27-ci iclasında və BMT-nin İnsan Hüquqları Şurasının (İHŞ) 25-ci sessiyasında iştirakımız bu sıradandır.

Dəvət olunduğumuz bu sessiyanın münaqişə şəraitində uşaq hüquqları mövzusuna həsr edilmiş iclasında da bəyanatla çıxış edərək ölkəmizin üzləşdiyi hərbi münaqişə, Qarabağ müharibəsi nəticəsində çox sayda insanın həlak olduğunu, insan hüquqlarının pozulduğunu qeyd edərək, qaçqın və məcburi köçkünə çevrilmiş bir milyon soydaşımızın üçdə birini məhz uşaqların təşkil etdiyini, məlum münaqişə başlayan vaxtlarda dünyaya gəlmiş uşaqların bu gün artıq 24-25 yaşlarında olduğu vurğulandı.

Azərbaycanlı məktəblilər - 9 yaşlı Farizin erməni hərbi snayperinin açdığı atəş və 13 yaşlı Aygünün ermənilər tərəfindən içinə partlayıcı qurğu yerləşdirilən oyuncağın partlaması nəticəsində həyatlarını itirdiyini və bu hadisələrlə şagirdlərin topladığı 310 000 imzanın BMT Baş Katibinin Uşaqlar və hərbi münaqişələr üzrə xüsusi nümayəndəsinə göndərildiyini bildirmişəm. Eyni zamanda "Fövqəladə hallarda uşaq hüquqlarının müdafiəsi" mövzusunda Bakıda keçirilmiş beynəlxalq konfransda müharibə vəziyyətində olan uşaqlara təxirəsalınmaz yardımın təmin edilməsi ilə bağlı Bakı Bəyannaməsinin qəbul edildiyi tərəfimizdən diqqətə çatdırılmışdır.

Qeyd etmişəm ki, müharibə vəziyyətində olan uşaqların hüquqlarının pozulması BMT-nin Uşaq Hüquqları Konvensiyasına, "Müharibə qurbanlarının müdafiəsinə" dair Cenevrə Konvensiyasına və digər beynəlxalq hüquqi sənədlərə, habelə BMT-nin, Avropa Şurasının, Avropa İttifaqının münaqişənin sülh yolu ilə həllinə dair müvafiq qətnamələrinə riayət olunmamasının nəticəsidir.

Azərbaycan Ombudsmanı Uşaq Hüquqları Konvensiyasına uyğun olaraq, preventiv tədbirlərin keçirilməsi, müvafiq mexanizmlərin tətbiqi və təbliği, uşaqların hər cür zorakılıq və ayrı-seçkilikdən müdafiəsi, uşaqlara qarşı cinsi istismar və cismani cəzanın yolverilməzliyi, məcburi köçkün, qaçqın, əsir düşmüş, əlilliyi olan, zorakılığa və insan alverinə məruz qalmış uşaqların müdafiəsi, uşaqların öz hüquqlarının təmin edilməsi sahəsində əməkdaşlığa və sülhün təbliği üzrə fəaliyyətə cəlb olunması, bu istiqamətdə informasiya və təcrübələrin daha sürətlə yayılması baxımından maraqlı olan tərəflərin Milli şəbəkəsinin yaradılması ilə bağlı təkliflər irəli sürmüşdür.

Eyni zamanda qeyd olunmalıdır ki, həmin sessiyanın Genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyanın 65-ci ildönümü ilə bağlı keçirilmiş, genosidin qarşısının alınmasına dair iclasında müvafiq mövzu üzrə Müvəkkilin yazılı bəyanatı qurumun rəsmi sənədləri sırasına daxil edilərək internet səhifəsində yerləşdirilmiş, 250 nüsxədə çap edilmiş və iştirakçılara paylanmışdır.

Qeyd etmək yerinə düşər ki, təsisatımızın fəaliyyəti dövründə Müvəkkil və əməkdaşları insan hüquqlarının müxtəlif istiqamətlərinə dair 410 beynəlxalq konfransda iştirak etmiş, bu zaman Azərbaycan həqiqətləri, üzləşdiyimiz soyqırımı hadisələri, terror aktları barədə dünya ictimaiyyətinə ətraflı məlumat verilmişdir.

16 fevral 2012-ci il tarixdə ölkəmizin Macarıstan Respublikasındakı səfirliyinin Budapeştdə yerləşən Soyqırımı və Kütləvi Qırğının Beynəlxalq Səviyyədə Qarşısının Alınması üzrə Fondla birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 20 illiyinə həsr edilmiş "Qərbi Balkanlarda və Cənubi Qafqazda beynəlxalq yurisdiksiyanın rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Azərbaycan Ombudsmanının da dəvət olunduğu bu mötəbər tədbirdə beynəlxalq humanitar hüquq və beynəlxalq cinayət hüququ sahəsində tanınmış ekspertlər, Serebrenitsa və Xocalı faciəsinin şahidləri, Macarıstanın Ombudsmanı, alimlər iştirak etmişlər.

Soyqırımı törədənlərin cinayət məsuliyyətinə cəlb olunmasında beynəlxalq məhkəmə orqanlarının rolu və imkanlarının müzakirə edildiyi həmin toplantıdakı çıxışımda bildirdim ki, Dağlıq Qarabağ münaqişəsi heç bir halda yalnız dondurulmuş münaqişə kimi nəzərdən keçirilə bilməz. Belə ki, tez-tez cəbhə bölgəsində sərhədyanı bölgədə yaşayan soydaşlarımız dinc insanlar erməni snayperlərinə tuş gəlir və həlak olurlar.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərin mümkün həlli yolları müzakirə edilərkən Müvəkkil olaraq bildirmişəm ki, Azərbaycanın dünya birliyi, BMT tərəfindən tanınan ərazi bütövlüyünün bərpa edilməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qeyd-şərtsiz icra olunması, işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində statusun verilməsi hər iki tərəf üçün konfliktin ən məqbul, mümkün və faydalı həlli yoludur və bu mövqe Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir çox beynəlxalq tədbirlərdə bəyan edilmişdir.

Azərbaycan Ombudsmanının Xocalı soyqırımı ilə bağlı bəyanatları, təsisatımızın müvafiq hüquqi nəşrləri, Xocalı soyqırımı haqqında, o cümlədən Heydər Əliyev Fondunun nəşr etdiyi kitablar konfrans iştirakçılarına paylanmışdır.

Macarıstanın aparıcı mətbu orqanı olan "Xalqın səsi" qəzetinə Xocalı soyqırımı ilə bağlı verilmiş geniş müsahibə çap olunmuşdur.

Yeri gəlmişkən, qeyd edim ki, Xocalı qətliamının şahidi, bu faciəni əks etdirən kitabların müəllifi Səriyyə Müslümqızı törədilən soyqırımı aktı zamanı ailə üzvlərini, 30-dək yaxın qohumunu itirdiyini, bəzilərinin isə itkin düşdüyünü, girov götürüldüyünü bildirmiş, həmin gecənin dəhşətləri haqqında ətraflı məlumat vermişdir.

Ombudsman olaraq Xocalı soyqırımının ildönümləri, 31 mart—Azərbaycanlıların Soyqırımı Günü, Şuşanın, Laçının və Kəlbəcərin işğalı günləri, Ermənistanın Azərbaycana qarşı təcavüzünün 20 illiyi, işğal olunmuş Azərbaycan ərazilərində tarixi abidələrimizin erməni silahlı birləşmələri tərəfindən dağıdılması, mədəni irsimizə ziyan vurulmasına dair bəyanatlarımız BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.

Bu bəyanatlarda bildirilmişdir ki, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımları zamanı yol verilmiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq, həmçinin dövlətdaxili hüquqa əsasən məhz genosid aktıdır və qatı cinayət kimi öz layiqli qiymətini almalıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı Genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyada təsbit olunmuş genosid cinayətinin əsasını təşkil edən bütün mənfur əməllər tətbiq olunmuşdur.

Bu bəyanatlarda soyqırımı törətmiş şəxslərin cəzalandırılmasının labüdlüyü, soyqırımı cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görülməsinin zəruriliyi ifadə olunmuşdur.

Həmin sənədlərdə qeyd olunmuşdur ki, ikili standartlara yol vermədən, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq, soyqırımı hadisələri genosid aktı kimi tanınmalıdır. Nüfuzlu beynəlxalq qurumlar birmənalı mövqe nümayiş etdirməyə, uzun illərdən bəri davam edən bu haqsızlığın aradan qaldırılmasına, bir daha bu soyqırımını pisləməyə, onu törədənlərin layiq olduqları cəzanı tezliklə alması üçün səyləri artırmağa, məlum beynəlxalq konvensiyaların tələblərinin yerinə yetirilməsində yardımçı olmağa çağırılmışdır.

İnsan Hüquqları üzrə Müvəkkil olaraq, bir daha bəyan edilmişdir ki, Ermənistan münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa olunmalı, onlar öz doğma yurdlarına qayıtmalı, azərbaycanlı əsir və girovlar azad edilməli, günahsız, dinc insanları məhv edən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və cəzalandırılmalıdır.

Həmin bəyanatlarda səlahiyyətli beynəlxalq qurumlar soyqırımını törədənlərə qarşı sanksiyalar tətbiq etməyə, dünya ictimaiyyəti Azərbaycan xalqının haqq işini dəstəkləməyə çağırılmışdır.

Ermənistanın Azərbaycanda törətdiyi soyqırımı cinayətləri, dinc əhalini qırğınlara məruz qoyması ilə bağlı maarifləndirmə işi aparılmasına mühüm əhəmiyyət veririk. Müvəkkilin Gəncə, Şəki, Quba və Cəlilabad regional mərkəzlərinin nümayəndələri bu istiqamətdə geniş maarifçilik işi aparır, şəhər və kəndlərdə, bələdiyyələrdə və ayrı-ayrı icmalarda əhali üçün tədbirlər keçirirlər.

Xatırlatmaq yerinə düşər ki, təşəbbüsümüzlə Bakıya səfər etmiş, Xocalı soyqırımı ilə bağlı sənədli filmin çəkilişlərinə qərar vermiş Ukraynanın nüfuzlu 5-ci telekanalının əməkdaşları ilə birlikdə Pirşağıda "Qızılqum" sanatoriyasında məskunlaşmış xocalılılarla görüşmüşük. Bu televiziyanın müxbirlərinə faciə qurbanlarının ailələri ilə tanış olmaq, tarixi faktları daha dərindən öyrənmək imkanı yaradılmışdır. Oddan-alovdan keçərək canlarını qurtarmış, ağır köçkünlük həyatı sürmüş xocalılıların o müdhiş gecədə törədilmiş faciə ilə bağlı ağrılı-acılı xatirələri lentə alınmışdır.

Ukraynalı jurnalistlərə tarix boyu erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı qanlı cinayətlər, terror aktları törədilməsi, Qafqazda öz tarixi ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə azərbaycanlının kütləvi surətdə qətlə yetirilməsi, öz torpaqlarından deportasiya olunması barədə tərəfimizdən ətraflı məlumat verilmişdir. XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımının ölkəmizə qarşı ermənilər tərəfindən aparılan çirkin siyasətin davamı, əsl genosid aktı olduğu bildirilmişdir.

Ombudsman Aparatında 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar keçirdiyimiz tədbirdə iştirak edən AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu direktorunun elmi işlər üzrə müavini, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov və institutun Qarabağ tarixi şöbəsinin əməkdaşı Nazim Mustafayev Müvəkkilin təşəbbüsü ilə keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Ombudsman Aparatına təqdim olunmuş, təsisatın divarlarından asılmış, Azərbaycan tarixinin müxtəlif dövrlərini əhatə edən nadir xəritələr barədə ətraflı məlumat vermişlər. "Cənubi Qafqaz - 1903-cü" il, "Ermənistanda etnik təmizləmə və Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü" - 1948-1953, 1988-1993" və "Azərbaycan Respublikasının siyasi-inzibati xəritəsi" bu qəbildəndir.

Bu xəritələri kiçik formatda ölkəmizin regionlarında yayacaq, əhali arasında aparılan maarifləndirmə işində geniş istifadə edəcəyik. Fikrimcə, həmin xəritələr beynəlxalq konfranslarda nümayiş etdirilməklə Azərbaycan həqiqətlərinin beynəlxalq qurumlara çatdırılmasında mühüm rol oynayacaqdır.

Dövlət başçısı bu ilin 10 aprel tarixində Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd etmişdir ki, "Azərbaycan cəmiyyəti, xüsusilə gənc nəsil Ermənistan dövlətinin tarixi Azərbaycan torpaqları üzərində qurulduğunu heç vaxt unutmamalıdır. Bu, bizim tarixi, əzəli torpaqlarımızdır, bütün toponimlər Azərbaycan mənşəlidir. Bunun üçün XX əsrin əvvəlində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir, bu xəritələrdə bir erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistan ərazisinin 80 faizindəki kəndlər Azərbaycan adlarını daşıyırdı. Bunlar bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Bu, bizim strateji hədəfimizdir və həmin hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq... Münaqişə Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll olunmalı, ikili standartlara son qoyulmalıdır".

Azərbaycana qarşı terrorçuluq siyasəti yeridən, daim toqquşmalar axtaran, saxta erməni soyqırımı ilə bağlı təbliğat hücumlarına ara verməyən Ermənistan BMT, Avropa Şurası, ATƏT kimi beynəlxalq qurumlara üzv olarkən insan hüquqları sahəsində öz üzərinə götürdüyü öhdəliklərə hörmətlə yanaşmalı və onlara riayət etməlidir.

Dağlıq Qarabağ münaqişəsi həll edilmədikcə, Cənubi Qafqazda sülh bərqərar olmayacaqdır. Odur ki, hər bir kəsi ölkədə sülh, regionda sülh, dünyada sülh naminə ardıcıl əməkdaşlığa çağırıram. Müxtəlif ölkələrdəki diaspor təşkilatlarımızın erməni yalanlarının, soyqırımı iddialarının ifşası, tarixi həqiqətlərimizin təbliği və dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli fəaliyyətinin daha da genişləndirilməsini zəruri hesab edirəm.

Ümid edirəm ki, Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın bərqərar edilməsində bütün nüfuzlu beynəlxalq qurumlar, sülhməramlı insanlar imkanlarını səfərbər etməklə səylər göstərəcək və haqq, ədalət qələbə çalacaqdır. Ölkəmizdə və bütövlükdə regionda sülh, davamlı inkişaf və işgüzar əməkdaşlıq naminə zəruri şəraitə nail olunacaqdır. Hər bir kəsin, hər hansı bir zəmində ayrı-seçkiliyə yol verilmədən ümumbəşər miqyasında tanınmış fundamental insan hüquqları və azadlıqlarının təmin olunması üçün real imkanlar yaranacaqdır.